# Uşaq qəlbini duya-duya

Hörmətli redaksiya!

"Ədəbiyyat" qəzetinin 30 aprel 2016-cı il tarixli 16-cı sayında istedadlı şair İnqilab İsağın bir səhifədə dərc olunmuş 16 uşaq şeirini oxudum və indi fikirlərimi oxucularla bölüşmək istəyirəm.

İnqilab İsaq çağdaş Azərbaycan poeziyasında özünəməxsus poetik mövqeyi olan şairlərdən biridir. O, həm də uşaq şairi kimi yetişdiyini çoxdan sübut etmiş və ətrafına xeyli oxucu toplamışdır. Gəncə ədəbi mühitində ən məhsuldar qələm sahibi kimi həmişə diqqət mərkəzindədir. O, orijinal poetik yaradıcılığa malikdir. Xüsusi təsvir və ifadə tərzi və digər sənətkarlıq xüsusiyyətləri ilə diqqəti cəlb edir. Belə demək mümkündür ki, həm böyüklər, həm də uşaqlar üçün yazdığı əsərlər bədii-poetik səviyyəsinə görə fərqlənir. Şairin hər iki sahədə apardığı bədii axtarışlar uğurlu tapıntılarla nəticələnir.

İnqilab İsaq oxucularının mənəvi dünyasına, duyğular, düşüncələr aləminə yaxşı bəllidir. Ona görə də onun şeirlərindən kütləvi şəhər tədbirlərində geniş istifadə olunur, özü ilə poeziya görüşləri təşkil edilir.

Uşaqlar üçün əsər yazarkən şair mühitə, təsvir obyektlərinə fərqli bucaqlardan baxmağı bacarır, qəhrəmanlarının daxili aləminə dərindən nüfuz edir. Onun təhkiyəsi, təsvirləri və uşaqların dili ilə danışması təbii və inandırıcıdır. Uşaq şeirlərinə marağı artıran cəhətlərdən biri də surətlərin dilini ustalıqla fərdiləşdirməsi, müəllif nitqi ilə uşaq nitqini bir-birinə qarışdırmamasıdır. Əsərlərindəki sadəlik, aydınlıq, ahəngdarlıq və oynaqlıq onların tez qavranılmasını təmin edir.

İnqilab İsağın zəngin müşahidələrlə qələmə aldığı şeirlərinin həyati gücünün bir amili də müəllimliyi ilə bağlıdır. O, pedaqoji təcrübəsi əsasında inandıra bilir ki, müasir uşaqlar öz təfəkkürləri, düşüncələri ilə çox fərqlənirlər Ona görə də haqlı olaraq nəsihətçilik eləmir, "bu yaxşıdır, bu isə pisdir" demir, yaxşını yaxşı adlandırmadan göstərir ki, uşaqlar özləri öz hissləri ilə onun yaxşı olduğunu qavrasınlar; pisi də elə təqdim edir ki, uşaqlarda ona qarşı saf-çürük etmək hissi oyansın.

Müəllifin 16 şeirindən 6-da uşaq dünyasının baş qəhrəmanları poetik duyğularla canlandırılır. Üçündə baba, üçündə nənə obrazı təqdim olunur.

"Eynək axtarır babam" şeirində nəvə babasının qocalığı ilə razılaşmır, çünki yerişi, danışığı, hər gün qəzet oxuyub dünyadan xəbər tutması buna imkan vermir. Amma eynəyi gözündəykən eynək axtarmasını çox incəliklə mənalandırır, etiraf etməli olur ki:

***Atam, anam, bir də mən***
***Qulluğunda dururuq.***
***Qocanı qocalıqdan***
***Əl-ələ qoruyuruq.***

"Babamın atı" şeirində isə nəvə babasının qocalığına inanır. Çünki neçə illərdir ki, Şuşanın, Cıdır düzünün və bir də kəhər atının həsrətini çəkir. Bu didərgin həyatı yaşayan kişi nəvəsinə tez-tez Cıdır düzündə at çapdığı günlərdən danışır, Şuşanın adını



çəkəndə qəhərlənir. Ancaq ümidini itirmir.

***Deyir: Cıdır düzündə***
***Yenə də atım çapar.***
***Atım da arzusuna***
***Mənimlə qoşa çatar.***

"Babamın əlləri" şeiri tamam fərqli məzmundadır. Burada uşaq babasının enli qabar, cod əlləri ilə bağçasında yaratdığı gözəlliyə möcüzə kimi baxır. Bu möcüzə onun cır ağaclara vurduğu calaqlardan, hətta tikanın gül açmasından ibarətdir. Şeir nəvənin maraqlı bədii məntiqi ilə tamamlanır:

***Amma qabar, cod əlləri***
***Başımıza sığal çəkir,***
***Sığal çəkir ipək kimi.***
***O əllər də çiçək açır***
***Bar gözləyən çiçək kimi.***

Yuxarıda qeyd etdiyimiz kimi, uşaq dünyasının baş qəhrəmanlarından biri də nənədir. Şairin balacalar üçün yazdığı əsərlərdə nənə obrazı özünün əyaniliyi, canlılığı ilə diqqəti cəlb edir. "Dili acı", "Nənəm, nənəm..." və "Güllü bina" nümunələrində məhz belə nənələrlə "görüşürük".

Nənəsi nəvəsini dilinin acılığına, tez-tez aranı qatdığına və balaca qardaşını ağlatdığına görə danlayanda uşağın verdiyi cavab oxucunu təbəssümlə düşünməyə vadar edir:

***Mən ki hər gün bolluca***
***Şirin qoğal yeyirəm.***
***Nənə, nənə, ay nənə***
***Dili acı deyiləm.***

Uşaqların psixi xüsusiyyətlərini, hər bir yaş dövrünün özünəməxsus cəhətlərini bilmədən balacalar üçün yaxşı əsər yazmaq çətindir. Başqa sözlə, uşaq psixologiyasının incəliklərinə yiyələnməyən, uşaq qəlbinin sirlərinə bələd olmayan yazıçı təsirli şeirlər yaza bilməz. Uşaq qəlbini dilə gətirmək üçün gərək öz qəlbini balaca ürəklərin vurğusu ilə səsləndirməyi bacarasan.

Bu fikrə İnqilab İsaq həmişə riayət edir. Onun poetik nümunələrində uşaq psixologiyası üçün səciyyəvi olan humanizm, səmimiyyət, nəzakətli rəftar, incə zövq və başqa müsbət zəruri keyfiyyətlər aşılanır. "Güllü bina" belə keyfiyyətlərlə yoğrulan şeirlərdən biridir.

Oxucuda xoş əhval-ruhiyyə yaradan şeirdə nənənin tez-tez suladığı güllər boy atıb həm eyvanı bəzəyir, həm də hər tərəfə, hətta nəvəsinin yatdığı otağa da ətir saçır. Yaxınlıqdan keçənlər bu gözəl mənzərəni heyranlıqla seyr edir və binaya həmişə "Güllü bina" deyirlər. Uşaq bunu eşidəndə sevincini gizlədə bilmir:

***Sevinirəm, nə yaxşı,***
***Belə açılır səhər.***
***İndi bizim binaya,***
***"Güllü bina" deyirlər.***

"Nənəm, nənəm" şeirində də səciyyəvi həyat faktı seçilmişdir. Nəvə ucqar kənddən qonaq gəlmiş nənəsi haqqında dostlarına danışır. Şəhər məni sıxır. O, nəvələrinə inandırmağa çalışır ki, gərək tezliklə kəndə qayıtsın. Yoxsa dağı, bulağı ondan küsər, arılar yorular, çiçəklərə qarışmaz, sözlü, qonaq gözlü yollar dil açar. "Maral" adlı inəyini kim sağar? Şəhərdə ağartı qıtdır, yarpız çayının ətri gəlmir, sac yuxasının, kənd çörəyinin dadını dadmaq olmur... Şair 35 misralıq şeirdə kənd həyatı haqqında xeyli təəssürat yaradır. Nənənin dedikləri uşağın yaddaşında elə həkk olunur ki, onun özünü də çiçəklərə oxşadır:

***Nənəm deyir: şəhərə***
***Nəvələr çəkir məni.***
***Nənəm yarpız, nanədi***
***Dadı, duzu nəvədi.***
***Boy çiçəyi ətridi....***
***Nənəm belə nənədi.***

Uşaq ədəbiyyatında elə əhəmiyyətli mövzular var ki, onlardan bütün dövrlərdə istifadə olunur. Vətənə məhəbbət, xalqımızın tarixi, təbiətə vurğunluq, insan əməyinə və ləyaqətinə ehtiram, böyüklərə, valideyinə, müəllimə hörmət, dostluğa sədaqət kimi mövzular əbədidir. İnqilab İsaq bu mövzulara tez-tez müraciət edir. O, həm də uşaqlara təbiət haqqında tam, düzgün dünyagörüşü aşılayan, konkret bədii təsvir, bədii zövq yaratmaq, obrazları düşündürmək iqtidarına malik əsərlər müəllifidir.

"Baharım" şeiri başdan-başa obrazlardan ibarətdir.

***Çiçəkləri xəzan xəbəri***
***Qovduqca qovan,***
***İnciyə bilmədiyim incim.***
***Qəlbimin ağrısında***
***Çiçək-çiçək açılıb,***
***Bükülmüş sevincim...***

Ana təbiətin baharını şair bədii sözün qüdrəti ilə məhz belə poetik zənginliklə vəsf edir.

"Cənnətin bağbanı", "Boş səbət", "Sınmış güldan", "Yerdən göyə"... şeirləri ilə İnqilab İsaq ətrafımızdakı gözəlliklərə qarşı balaca oxucularda həssas münasibət tərbiyə edir. Onun lirik qəhrəmanı çölü daşdan, alaq otlarından təmizləyib güllər əkir. Öz dili ilə desək, cənnət yaradır.

***Çöl güllənib,***
***Çöl dillənib***
***Cənnət olub.***
***Bu cənnətin***
***Bağbanı bağ***
***Zəhmət olub.***

Burada şairi öz oxucusu ilə daha çox obrazlı ifadələrlə danışır. Onun sadə və aydın bir dildə ifadə etdiyi obrazlar şeirin emosionallığının güclənməsinə təsir göstərmişdir.

Digər şeirlərdən fərqli olaraq "Boş söhbət"də çox yığcam, uşaq ruhunu, əxlaqını tərbiyə edən süjet vardır. Uşaq meşəyə moruq yığmağa gedir. Əlini tikan yaralayır və ağlamağa başlayır. Acıqlı tikan deyir ki, ağlama, çiçək vaxtı sən daş ataraq hər çiçəyi yaralamısan. İndi əl vurduqca sızıldayır. Oğlan günahını başa düşür, yanaqları qızarır. Şeir ibrətamiz sonluqla bitir:

***Uzatmadım söhbəti.***
***Boş qaytardım meşədən***
***Apardığım səbəti.***

Şeir uşaqların xaraktercə formalaşmasına saflaşdırıcı təsir göstərən bir nümunədir.

Dilimizin poetik imkanları çox genişdir. İnqilab İsaq bu imkanlardan bacarıqla istifadə edir. Şeirin bədii təsir qüvvəsini artırmaq məqsədilə Azərbaycan dilinin fonetik imkanlarına da xüsusi diqqət yetirir. "Barışan daşlar" və "Ayla" şeirlərini buna misal göstərə bilərik.

12 misralıq "Barışan daşlar"da müəllif "ş" samitini 14 dəfə, 20 misralıq "Ayla" şeirində "y" samitini 17 dəfə təkrar etmişdir. Ədəbiyyatşünaslıqda belə səs təkrarı alliterasiya adlanır. Şair həmçinin "Ayla" sözünün omonimini yaratmışdır. Yəni Aylanın fikri ayladır, ayın yanındadır, ay ilədir.

***Elə ki gecə düşdü,***
***Bizim gözəl Aylanın***
***Fikri ayladı, ayla.***
***Nənə dilində layla,***
***Ana dilində layla.***
***Ayla yuxuya gedib,***
***Yat şirin-şirin, Ayla ...***

Şəxs adı Ayla ilə Yerin peyki Ayın və laylanın səs tərkibinin yaratdığı ahəngdarlıq nə qədər cazibədardır.

İnqilab İsağın uşaq şeirlərindəki sənətkarlıq xüsusiyyətlərini nəzərə alaraq demək istərdik ki, bu nümunələrdən seçib ibtidai siniflər üçün dərsliklərə salmaq yalnız fayda verər.

**Zirəddin Cavadlı**
**Azərbaycan Jurnalistlər Birliyinin üzvü**